İftixar

# Dan yeri söküləndə

## İki hissəli qəmli komediya

**SÜLƏ SÜLÖYMƏN** - Getdim gördüm mantyor Cəfərin gürcü kəndinnən qonaqları gəlib, stolda da quş iliyi, can dərmani... Bah-bah-bah... Deməli, arax çaxıra qarışıb, çaxır arağa, özü də ki, kötük arağı, kötük çaxırı...

**MOLLA QASIM** - Yəqin ki, sən də nöyüsünü saxlıya bilməzdin dana...

**SÜLƏ SÜLÖYMƏN** - Yox-yox, başın haqqı, mən içmirdim, yıxıb zornan boğazıma tökdülər, ondan sonra daa nağayreydim?..

**BADULADZE** - (*Buynuz dolu şərabı Xıdıra uzadır, stəkanı Nataşaya verir və öz stəkanını hamı ilə bir-bir toqquşdurur.*) Za daqoy, veliqalebnıy vozvaraşeniya!.. Qau-mar-cos!..

**HAMI** - Qau-mar-cos!.. Qau-mar-cos! (*İçirlər. Nataşa içmir.*)

**BADULADZE** - Kalbadono (*Xanım*) Nataşa, a viy baçemu ne pyote?

**NATAŞA** - (*Xıdıra tərəf baxır.*) Mne mojno pit?..

**BADULADZE** - Qaneşna mojna, miy za vas pili, u nas surpa zaqon yest... Esli badnemaeş, sducayeş, daqda uje bit nado.

**BARBARYAN** - A to budim carima davat... Xıdır razve tı ne nauçil naş zakon.

**XIDIR** - Ona vsyo xoroşo znayet... Nataşa, pey...

**BADULADZE** - Naucil da!.. Molades!..

**NATAŞA** - Za vas!

**BADULADZE** - Net. Za vas! Za nas badom buded, surpa est zaqon...

**SÜLƏ SÜLÖYMƏN** - Ayə, bə mana niyə süzmürsünüz, a qıldıxsızdar?.. Mən də bu xalxın oğlu döyləmmi?.. Ayə, bə ləhcəmiz bir döylümü?..

**AŞIQ ƏHSƏN** - Süzün ayə, buna da süzün, hələm bir Dambat Dursunu içəridən buraxın, ona da süzün, qoyun içsinlər, bəlkəm gözləri doya...

**MOLLA QASIM** - Dambat Dursunu deyə bilmərəm, əmbə Sülənin gözü doyan döylü. Sülənin gözü doysaydı, daa onda o niyə sülə olurdu?.. Bə sən tova deməmişdinmi, a tova sana qənim olsun?..

**SÜLƏ SÜLÖYMƏN** - Ayə, Xıdır gəlib ey, Xıdır. Xıdır tovadan irəlidi.

Onun sağlığına içməsəm ayıb olmazmı? Kişinən boçqalarnan çaxır hortdatmışam. Bə mənnən küsməzmi?.. İnciməzmi?.. Temboyle, yanında qonağı da var... Bə qonax nə deyər?.. (*Buynuzu Xıdırdan alıb süzür və birnəfəsə içir.*)

**MOLLA QASIM** - Gör bir həncəri hortdadır ayə, elə bil tova suyuna çimən mən olmuşam, bu yox... Kişinin oğluna nahaqdan ha Sülə demirlər...

**GÜNƏŞ** - (*Hövlnak səhnəyə daxil olur. Əvvəlcə Xıdıra baxır. Xıdırın görkəmi onda heyrət doğurur. Sonra Nataşaya və Daşaya baxır və üz-gözünü cırmağa, özünü dəhşətli dərəcədə döyməyə başlayır. Üzünü Xıdıra tutur.*) Tfuuuu sana!.. Öyüm yıxıldı, ocağım qaraldı ay cahamat, başıma tufan qopdu, çovğun töküldü, qar yağdı... A Xıdır, a Xıdır-a Xıdır, belə görüm, sənin qara xavarın gələydi, a Xıdır... Qara şaxını bəziyeydim... Əlimə qara xına qoyub, qara paltar geyinib, qara şal örtüb, "Xıdırım vay, Xıdırım vay" deyə-deyə dəli olub dərələrə düşeydim, a Xıdır. (*Əvvəlcə Xıdırın üstünə şığıyır, əl-qol atmağa başlayır, sonra birdən Nataşanın üstünə cumur və saçından tutmaq istəyəndə əli boşa çıxır, ağzı üstə yerə yıxılır...*)

**NATAŞA** - (*Əlini uzadıb onu yerdən durğuzmaq istəyir.*) Ostorojno, lapoçka. Day mne ruku.

**GÜNƏŞ** - Rukunu çək aaz... Qancıx... Üsdümə gəldiyi yetmir, hələm bir əl də uzadır mana... Günün günündən pis gəlsin, a sarı matışqa... Səni görüm, qara baxt, qara yığval yiyəsi olasan, həncəri kin mən qara baxt, qara yığval yiyəsi oldum... Buna bir bax, utanmır öydə üç-üç ay parçası təkin oğlan uşağının gözdərini yolda qoyub, dalına da urusu salıb kəndə gəlib... Hələm bunun hörüyünə baxın ay cahamat... Urusdar Xıdırı arvad elliyib, ay cahamat... Başına daylax quyruğu qoyub, ay cahamat... Xıdır ölüb, ay cahamat, kişi Xıdır ölüb, bu arvad Xıdırdı... Bunu urusdar arvad eliyib, arvada qoşub, kəndə göndərib!

**XIDIR** - Aaz, vallah bu saat səni qanına bəliyəjəm, dur burdan cəhənnəm ol, öyə get...

**NATAŞA** - Xıdırçik, klyanus ya v şoke. Uspokoysya, ne nado poddavatsya na provokatsiyu.

**XIDIR** - Dur, cəhənnəm ol, get öyə, gəlib öydə sana özüm hər şeyi qandıracam...

**GÜNƏŞ** - Sən o öyə gələ bilməzsən, ya səni vurub öldürrəm, ya özümü. Ya da öyə od vurub yandırram... Sənin ayağın o öyə dəyə bilməz bunan sonra, haxçığını da götür hansı cəhənnəmə isdiyirsən get... (*Nataşanın üstünə cumur.*) Urus qancığı... (*Xıdır onu itələyir.*)

**NATAŞA** - Boje moy, ya v şoke. Ona-prikol. Nu çto ona xoçet ot menya? Çto ona sebe ubivaet? Tı çeqo kriçiş?.. Abyasni normalno, posmotrim, çto tı xoçeş?

**BARBARYAN** - (*Günəşə təpinir.*) Tixo!.. Bu saat səni tutub salaram içəri... Xuliqanlıq ne nado... Adam kimi danış...

**GÜNƏŞ** - Buna baxın ay cahamat, kəndi yeyib, talan eliyənə bir baxın, elə bil mal oğurramışam, qoyun oğurra-

mışam, gətirib bunun haqqını verməmişəm... Mal oğurruyanı heç tutmur, məni tutub içəri salır, əmbə üsdümə günü gətirənə, günü gələnə dəymir... Xalxı yiyəsiz tapıblar, bu saat gedirəm dədəmin öyünə, onda görüm dədəmə nə cavab verəcəksiniz...

**XIDIR** - A dədənin qırıx qılçasına it bağlıyım, sakit ol dana. Sən nə bilirsən kin bu kimdi, niyə gəlib kəndə?.. Nə ağzına gələni üyüdürsən?.. Kirimiş dursana... Elə elləmə kin vurub başını dədəyin qılçasına döndərim, it bası təkin əzim... Elə bilirsən Urusyətdə pul düzə tökülüb?.. Düzdü mən onunla öylənmişəm, əmbə ayrı çaram yox idi... Bu böyük iş adamıdı, yekə- yekə şirkətləri var... Elə bilirsən mənim qara gözümə, qara qaşıma aşiq olub? Xeyir... Mənnən də yaraşıxlı oğlanlar var orda. Elə kin bildi bizim kənddə yaxşı bulaxlar var, mana ərə gəlməyə irazılıx verdi... İndi gəlib kin o bulaxların suyunu potulqalara doldurub,dünyanın hər yerinə satax... Öyümüzün içindəcənə pul qazanax... O sudan sən də yeyəcəksən dana...

**GÜNƏŞ** - Ağı ye səni, ağı ye... Mana lazım döylü elə yemək...

**BADULADZE** - Tı çeqo qriçiş ha?.. Sakit danışa bilmir?.. San yemax isdamir, biz isdayir... Molades Xıdır... Tı vseqda bil umnıy... Ya doje bamaqu vas,vmesde vsyo uladim...

**SÜLƏ SÜLÖYMƏN** - Ayə, atamın goru haqqı belə şey ələ düşməz... Vallah, Xıdır geri çəkiləsi olsa, mən arvad-uşağı düzdə qoymaqdısa, göydə qaparam onu... Əmbə bilirəm ki, Xıdır geri çəkilməz...

**XIDIR** - Ayə, a müxənnət oğlu, müxənnət, harya göz tikirsən, ayə... Ölümünmü çatıb...

**MOLLA QASIM** - Hardadı bizdə o yığval... Ölsəydi, ayıblar örtülərdi, elin də işi düzələrdi... Qubernatorun sözü kəsilərdi... (*Cəlil Əfəndi səhnəyə daxil olur.*)

**CƏLİL ƏFƏNDİ** - Xoş gəlibsən a Xıdır!.. Həmişə öyündə-eşiyində... Amma deyəsən tək gəlmiyibsən, qonağın da var... Dobro pajalovat!..

**NATAŞA** - Zdrastvuyte... Nataşa... Spasibo, Djalil Efendi...

**AŞIQ ƏHSƏN** - Ayə?.. Bu Cəlil Əfəndiyi tanıyırmış kin...

**SÜLƏ SÜLÖYMƏN** - (*Cəlil Əfəndiyə yaxınlaşir, qulağına pıçıldayır.*) Dambat Dursunu işəri salıblar... Dünənnəri də Yaradanqulunu salmışdılar çənələrinin altına, nəsə deyirdilər. Qapıdan keçəndə bircə onu eşitdim kin, Yaradanqulu deyir kin, məni belə işlərə qatmıyın, mənim əlimnən belə işlər gəlməz... Daa bilmədim nə iş idi...

**XIDIR** - O hamıyı tanıyır qiyabi...

**MOLLA QASIM** - A köpoğlunun urusu... Eləcənə iznak ver, dalınnan işin olmasın... Özü düz qapıya gələcək Nanı Kişinin hinduşqaları təkin...

**GÜNƏŞ** - Ay Cəlil Əfəndi, sana qurban olum, görürsənmi Xıdırı-qara başıma nə iş gətirdi... Məni həncəri gülünc elədi elin-obanın içində... İndi mən başıma haranın daşını töküm?.. İki il yarım yolunu buna görəmi gözdüyürdüm?.. Qardaşımın başı haqqı özümü yandıracam... Yoxsa mən bu dərdi sinirə bilmərəm...

**CƏLİL ƏFƏNDİ** - Hövsələli ol, a qızım... Darıxma... Səbr elə... Səbr Allahın adıdı... Allah özü bilən məsləhətdi... Bunlar hamısı düzələn, qaydasına düşən işdi... O qədər düzəlmiyən, çarəsi olmuyan işlər var ki... İndi bizim bunnan da böyük dərdimiz var... A cahamat, bilirsiniz ki, kəndin qəbristanlığı dolub. Qəflətən biri yıxılıb ölsə, dəfn etməyə yerimiz yoxdu. Hökumət də yer vermir, torpaqların hamısı satılıb... Hara əl uzadırsan, yanınnan bir əl çıxır... Ağzımız qayaya dirəşib... Umud bircə Pir Məmməd dağının arxasındakı Avtartet Abının yerinə qalıb... O da cəncələ düşüb. Abı qaladan buraxılıb, bu gün kəndə gəlir... Qubernator belə məsləhət görür ki, Abı kəndə gəlib çatana qədər həmən yerə olü dəfn edək... Kənddən vaxtsız-vədəsiz ölü istiyir qubernator... Biz ölüyü hardan alax bu dar macalda?.. Alan da Allahdı, verən də... Biz Allahnan Allahlıq eliyə bilərikmi?..

**OBOLO BƏŞİR** - Bə bu Abıyı kim buraxdı, niyə buraxdı, həncəri buraxdı belə tələm-tələsik? Axı o heç amnistyaya da düşmür...

**BARBARYAN** - Luçşi tı zatknis... Tı uje zakonam qavariş...

**BADULADZE** - Oboli, sanin dilin yaman uzanib, deyasan ujunu kəsib Abının yerina gondarmaq lazimdi...

**CƏLİL ƏFƏNDİ** - A Barbaryan, Dambat Dursunu niyə içəri salıbsınız?

**BARBARYAN** - Oziniz qubernatora şikayat elamayibsiniz, çto biz oğrilari tutmuruq?..

**CƏLİL ƏFƏNDİ** - Mən oğru tutun demişəm, doğru yox...

**BADULADZE** - Calil Apandi, bodişi, (*bağışla,*) san uvajaemıy çelovek... Biz tuturuq, no kto oğri, kto doğri, eto zaqon reşaet...

**CƏLİL ƏFƏNDİ** - Onu buraxın, o oğru deyil, gedin əsl oğrunu tapın, tutun!..

**BARBARYAN** - Pojalsta, buraxaq, no potom demayin ki, biz oğru tutmuruq. (*Gedib Dambat Dursunu buraxır.*)

**DAMBAT DURSUN** - (*Heç kəsə baxmadan, əlini göyə açıb, alxış edə-edə, tələsik səhnədən çıxır.*) Allah balalarını saxlasın a Barbaryan, ömrün uzun olsun, indicə erkəyi gətirrəm.

**SÜLƏ SÜLÖYMƏN** - Bu zalım oğlunun heç dünyadan xəbəri yoxdu...

Buraxdıran kim, erkəyi kimə verir... Öldürməyə adam axdarırsınız, aha, öləsi döylümü?.. Hazır meyitdi, götürək, aparax quyuluyax...

**BARBARYAN** - Dlya basdirmaq, tı toje qadişsa...

**MOLLA QASIM** - Allaha da ağır getməsin, mən deyəcəm, sözümü qəribçiliyə salacaqsınız... Qızdarbəyi qarının yaşı yüzü otüb... Heç özü də bilmir neçə yaşı var... Danışanda Niqalayın əsgərlərinin yaylaxda qaçaxları gəzəndə bunların dəyəsində necə yeyib- içməklərindən danışır... Vallah, bu boyda yaşamaq da gunahdı... Özü də can üstədi, zulum çəkir. Onsuz da öləcək... Deyirəm Al-



lahdan izin alax, ağıdan- zaddan verib canını qurtaraq... Suyabdı... Həm elin işi düzəlsin, həm də özünün canı qurtarsın...

**GÜNƏŞ** - Ay Allahsız molla, özünə Allah adamı deyirsən, bə Allahdan qorxmursanmı?.. Onsuz da canım boğazıma yığışıb, vallahı, ataram abrımı, xançalı qarnına soxub, bağırsaqlarını tökərəm yerə. Öləsiləri burda qoyb, o fağır qarıdan nə isdiyirsən?.. Elə çarə bilənsən özünə qıysana kəndin, elin yolunda. O qədər cavan-cavan adamları "Allah yolunda şəhid oldu" deyib basdırıbsan ki. Allahın, elin-obanın yolunda indi də özünə qıy da... Xalxa da xoş gedər...

**MOLLA QASIM** - A qızım, mən məsləhət üçün deyirəm, sən bir az qanacaxlı ol, qonağın yanında özünü gülünc eləmə...

**GÜNƏŞ** - Demək Xıdırın mənim üsdümə günü gətirməsinə söyünürsən ha, sənin oğluna getmədim deyənmi?.. Haqq olur mənə... A Xıdır, offf, a Xıdır, səni görüm qızıl güllüyə tuş gələsən... Gör bir məni həncəri puç elədin bu işıxlı dünyada... Atamın başı haqqı ya sizi öldürəcəm, ya da özümü... (*Nataşanın üstünə cumur.*) Ey köpək qızı, mənimmi ərimi əlimnən alırsan? Bu saat səni holaver çəkəcəm. (*Saçından yapışanda Nataşanın pariki Günəşin əlində qalır. Günəş pariki onun başına çırpır.*)

**SÜLƏ SÜLÖYMƏN** - Biabır olduğ ayə, bu keçəl imiş ki... (*Xıdır Günəşi şillə ilə vurur... Günəşin burnu qanayır. Nataşa Xıdıra təpinir.*)

NATAŞA - Kak tebe ne stıdno, ruku podnimaeş na jenşinu...

**GÜNƏŞ** - Ay ellər, Xıdır öldü ay ellər! Xıdırın qara xavarı gəldi, ay ellər!.. Booy, başıma qar yağdı, ay ellər...

**XIDIR** - İt qızı, ölən sənin dədən köpəyoğludu... Səni mən saxlasam bu biğ, saqqal mana haram olsun...

**MUNCUQLU MAHMUD** - Sluşay, tiftilin qaldı, tiftilini də de... (*Əli ilə saçını göstərir.*)

**GÜNƏŞ** - Xıdır, budu, hamının içində sana deyirəm, sən o öyə gəlsən, səni də, o yetimçələrini də, öyü də, özümü də yandırmasam itin balasıyam, donuz çoşqasıyam, anamın südü, atamın çörəyi burnumnan gəlsin!.. Xıdır öldü, ay ellər!.. (*Amiranə şəkildə səhnəni tərk edir.*)

**NATAŞA** - Klyanus ya v şoke. Ona prikol. Ona prosto prikol.

**MOLLA QASIM** - Ayə, bu nə həyasız şey imiş a qardaş...

**CƏLİL ƏFƏNDİ** - A cahamat, diqqətinizi toplayın, hisslərinizi cilovlayın... Ağlınızı işə salın görək, bu dardaneldən necə çıxırıq?..

**AŞIQ ƏHSƏN** - Ayə ölməli o qədər adam var ki, kənddə... Budu ey, biri bu Muncuq, o da Qızdarbəyinin tayı döylümü?.. Onsuz da o Sibirdə ölməliydi, Allah üzünə baxıb, yazığı gəlib, öldürməyib... İndi o öləndə əskiyimiz ha çıxmıyacaq... Onun taylarının sümüyü də çürüyüb... Bu dünyada yaşadığı bəs döylümü?.. Bəlkəm elə o dünyada Leninnən Stalin təzə inqilab eliyir, getsin kömək eləsin dana... Biri bax, bu Sülə, neynir yaşayıb?.. Dünənnərisi tova suyuna çimir, içmiyəcəm deyir, əmbə bugünnərisi küpünə girir... Eləcənə də bu Obolo Bəşir, kəndin malı-qoyunu, atı- eşşəyi, toyuğu-cücəsi onun adını eşidəndə cannarına vəlvələ düşür. Heyvannar balalarını "Obolo Bəşir gəlib səni aparar" deyibənü, onun adıyla qorxuzub, yatırdırlar... Budu, bu Dul Alınan Nanı Kişi neynir yaşayıb?.. Ağı içib niyə ölmürlər, ayıbları da örtülə? Sabahdan axşama təkin çubuğu paçalarının arasına alıb abırsız-abırsız belədən-belə qaçırlar, elədən-elə. Gəlib-gedənin yanında da biabır olmuşuq. Vallah, mən bunların yerinə olsam, bir gün də yaşamaram...

**MUNCUQLU MAHMUD** - Ya ne protiv, no sən ölsən daha layiqli olar... Elə sazı da qucağına qoyub, saznnan bir yerdə basdırarıq səni... Yerə-göyə də car çəkərik, çto ölən bıl samıy qenialnıy aşuq etoqo stoletiya. Eto bıl bı krasıvo. Başdaşına da elə beləcə napişem... Qoy gələcək nəsil də görsün ki, sən hansı dərdin dərmanı olubsan bu kənddə... Bayaqdan bəri ləbbey deyirsən, gah Barbaryana, gah da Baduladzeyə... Neçə illərdi Molla Qasım oturur orda, sən də burda... Hər gələn naçalnikin, hökumətin qabağında ding-ding dingildəyirsiniz. Oturana-durana macal vermirsiniz... Səhərdən axşama qədər donos verirsiniz. Elə bil bu can sizə ömürlük verilib... İt kimi quyruğunuzu əsdirə-əsdirə qorxu içində yaşayırsınız... Kişi deyilsinizmi, yapışın bu Barbaryanın xirtdəyindən (*gözlənilməz şəkildə, yaşına uyğun olmayan qeyri- adi çəldliklə Barbaryanın boğazından yapışmağı ilə çiynindən paqonunu qopartmağı bir olur*) vurun öldürün!.. (*Hamı donub qalır, hətta Barbaryan da söz deyə bilmir. Muncuqlu Mahmud ürəyini tutub oturur.*)

**DUL ALI** - Ayə, biz də ne proytiv... Əmbə Abı qağam gələndə ona sən nə cavab verəcəksən, a geydirmə molla? Deməyəcəkmi kin, xalxın ağlını yalan-gerçək kəsdirə-kəsdirə niyə sən sağ qalıbsan, əmbə Dul Alı ölüb?.. Bə Abı qağam bu aşıxdan soruşmayacaqmı kin, Ələsgərin iki şerinnən başqa söz bilmiyə- bilmiyə əlinə saz götürüb adına aşıx dediyin bəs döylümü, sən dura-dura hələm qırmızı alması oynamamış adamlar ölür?.. Həm də sənə neçə dəfə demişəm kin, Ağ Mələk qoymur bizi ölməyə, deyir kin, hələm sizə göyün yeddinci qatında toy eləyəcəm ədli-düdlü... Neçə dəfə demişəm, a çömçən təpəndə partdasın?.. Haay?.. A Dul Alınan Nanı Kişi ağırlığında təpənə qara daş düşsün...

**NANI KİŞİ** - Ayə, a sazın təpənin ortasında çilik-çilik olsun, biz yaşamaqdan ötrümü yaşıyırıq? Biz ölməkdən ötrü yaşımırıqmı? Əmbə görmürsənmi Ağ Mələk qoymur ölməyə? And olsun Allaha icazə verə, heç qoyarammı ki, Cəlil Əfəndi çətinə düşə, bu dayqanaca gözdərimi yumaram, heç uf da demərəm... Deyirəm, sizin bir hinduşqa qədər də qeyratınız yoxuymuş. Allahın bir ucuz ölümü yoxdu ki, öləsiniz, sizin əlinizdən canımız dincələ. A yerin- göyün yaramazdarı, a təpənizə kül, ağrım içinizə, niniyirsiniz yaşıyıb?.. Siz havaxt öləcəksiniz? Bax niyə ölmürsünüz ki, ayıblarınız örtülə, ay ayıbınızı yer al-

...ına çəksin?.. Əmbə yoox, sizin ayıbınızı yer də götürməz, göy də. Sizin ayıbınız heç yerə yerləşəsi şey döylü. O Pirməmmədin gülü-çiçəyi hayıf döylümü, siz orya basdırılasınız, havası hayıf döylümü, sizə qismət ola? Sizə elə zəvzəyə-zəvzəyə yaşamaq yaraşır. Yaşayın yaşaya bildikcə. Qoy beyjə Ağ Mələk gəlsin, heç dədəmin qızı döyləm mən ona deməsəm, deyəjəm ki, bu kənddə ölü basdırmağa yer də tapılmır, ölü də tapılmır... Niyə?.. Çünki heç kəs ölmək istəmir, hamı üzünə dayanıd, dünyanı tutub, durmaq istiyir. Elə bil dünyanı tutub durmaqdan ötrü Allahnan şərt kəsiblər... Axırı havaxtsa öləsi döylüsünüzmü, a qadam qarnınıza?.. Heç olmasa bircə dəfə canınızda hey tapın, qeyrətə gəlin... Vallah mənim hinduşkalarım sizdən yüz kərə, min kərə ağıllıdılar, qeyratdıdılar. Hansını tutub kəsirsən, heç of da demirlər, heç cınqırları da çıxmır. Niyə?.. Çünki, bilirlər ki, bir gün olan bir gün də ölməlidi. Əmbə gör bunlar yaşamaqdan ötrü özlərini həncəri şiləploy eləyirlər? Ölün dana, ölün, niniyirsiniz bu işıqlı dünyada yaşayıb... Ay Cəlil Əfəndi, vallah bunlara baxanda adam dirigözdü gedib o torpağın altına girmək istiyir... Aparın, aparın məni basdırın dirigözlü, qoy bu da bir görk olsun bu zəvzəhlərə...

**DUL ALI** - A Nanı Kişi, beyjə Ağ Mələyə deyərsən kin, daha canımız boğaza yığışdı, qoy, aparsın bizi bunların əlinnən göyün yeddinci qatına... Gedib ordacana rahatca toy eləyib yaşıyarıq, canımız da dincələr bu dingirişlərdən... Gör cannarınnan ötrü bir-birinin ətini həncəri yeyirlər... Bunlar adam ha döyüllər, bunlar adam yeyəndilər... Adam yeyənlərin arasında durmaqdansa lap elə ölüb o torpağın altına getmək yaxşıdı... Abı qağam düz eliyir sizə torpaq vermir... Adam yeyənlərə ölüm... Adam yeyənlərə ölüm... Yaşasın Ağ Mələk... Yaşasın Cəlil Əfəndi... Yaşasın Abı qağam... Yaşasın Nanı Kişi... Yaşasın Dul Alı... Yaşasın Ağ Mələk... (*Bütün bu sözləri deyə-deyə Nanı Kişini də çubuq atın tərkinə mindirib heyrət doğuran kişnərtilərlə bağıra-bağıra səhnədən çıxır.*)

**XIDIR** - Həncəri vermir ayə, Abı torpağı?.. Çox oyan-bu yan eliyər, it balasıdı yalan deyən, başını it başı təkin əzib onun özünü quyuluyaram o torpağa!.. Mənə da Xıdır deyərlər... Kurutoy Xıdır... Urusyətdə o boyda bazar mənə baxır, bazarın pullarını mən yığıram... Qlyanus ubyu eto Abı...

**NATAŞA** - Xıdır, tı ne vmeşivaysya... Stoy spokoyno...

**XIDIR** - Yox dana, deyirəm yanı indi biz də özümüzə görə bir kişiyik, Abının qavağınnan qaçası ha döylük...

**NATAŞA** - On prikol, e-e-e... Xıdır, ya skazala, çto ne vmeşivaysya...

**XIDIR** - Qurban olsun Nataşaya... (*Lyudmila təlaşla, qaça-qaça səhnəyə daxil olur.*)

**LYUDMİLA** - Ay caxamat, Avtoritet Abı qaldi! Avtoritet Abı qaldi!

**MOLLA QASIM** - Necə gəldi?.. Hara gəldi?..

**AŞIQ ƏHSƏN** - Bəs necoldu?.. Hara getdi?..

**LYUDMİLA** - Yaradanqulugila taraf qetdi... (*Xaos yaranır, hamı Yaradanqulugilə tərəf qaçır.*)

**HAMI** - (*təlaş və təşvişlə*) Evimiz yıxıldı!.. Qoymayın!.. Tez olun!.. Özünüzü çatdırın!.. Kömək eləyin!.. (*İşıqlar yavaş- yavaş yığılır, səhnə qaranlıqlaşır, gecə düşür... İt hürüşməsi, cırcırama səsi və uzaqdan eşidilən saz havası gecəyə hakim kəsilir... Hardansa yanıqlı səslə Nanı Kişi oxumağa başlayir.*)

**NANI KİŞİ** - Pir Məmmədin başı duman, Mənim halım oldu yaman, Mən bu dağdan gül dərərdim, Güllər soldu aman-aman...

**DUL ALI** - (*Xısın-xısın*) Oxu səsinə qurvan, oxu... Oxu ay ellər qızı, oxu... Oxu öyüm-eşiyim, oxu... Oxu gözümün işığı, oxu... Oxu ay ömrüm-günüm, oxu...

**NANI KİŞİ** - Görürsənmi burdan kənd həncəri gözəl görsənir...

**DUL ALI** - Bura kəndin ən hündür yeridi axı...

**NANI KİŞİ** - Elə bil kəndin işıxları dünyanı başına götürüb, yeri- göyü işıqlandırır. Bir azdan Ağ Mələk gələcək, beyjə göyün yeddinci qatına gedəcəyik. Başını çiynimin üsdünə qoy, kirimişcə dur, səni də özümüznən aparacayıq göyün yeddinci qatına. Orda toyumuz olacaq... (*Nanı Kişinin məlahətli səsi gecənin qaranlığına hakim kəsilir. Bir qədər sonra bu məlahətli səs it hürüşməsi, cırcırama səsi ilə əvəz olunur, daha sonra sazın kövrək səsinə qovuşan xoruzların banı səhərin açılmasından xəbər verir. Göyün üzündə bir cüt ulduz bərq vurur, ulduzlar tədricən görünməz olur. Dan yeri sökülür... Büstü dağıdılmış bünövrənin üstündə gəlinlik fatasını xatırladan ağ tülün altında bir-birinə sarılmış şəkildə, başları bir-birinin çiyinlərinin üstündə dayanan iki adam görünür. Günəş onların başı üzərindən doğmağa başlayır... Süpürgəçi süpürə- süpürə səhnəyə daxil olur. O, büstü dağıdılmış bünövrənin dövrəsini süpürərkən göy guruldayır, şimşək çaxır, külək qalxır. Külək büstün üstündə oturan adamların üzərindəki tülü götürür, adamların üzü açılarkən onların Dul Alı ilə Nanı Kişi olduğu aydınca görünür. Yağış yağmağa başlayır. Süpürgəçi qaçaraq səhnəni tərk edir.*)

**YETİM BAYRAM** - (*Dul Alının geyiminə bənzər geyimdə, onun çubuq atına bənzər çubuq atı səyirdərək səhnəyə daxil olur. At kimi kişnəyir, büstü dağılmış bünövrənin dövrəsinə dolanır, səhnənin önünə gələrək qışqırır.*) Ay cahamat, nə yatıbsınız, durun ay cahamat, Ağ Mələkdən ismarıc var, Ağ Mələkdən ismarıc var... Oyanın ay cahamat... Yaşasın Ağ Mələk... Yaşasın Cəlil Əfəndi... Yaşasın Abı qağam... (*Deyə-deyə çubuq atını səyirdərək, kişnəyə-kişnəyə səhnədən çıxır. Dul Alı ilə Nanı Kişinin başı üzərindən doğan günəşin şüaları göz qamaşdıracaq dərəcədə şölə saçır. Onlar günəşin şəfəqləri arxasında görünməz olur. Pərdə bağlanır.*)

***SON***

*P.S. Əvvəli jurnalımızın ötən saylarında darc edilmişdir.*